# KƏND TURİZMİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Yunusoğlu Q.**

*Bakı Dövlət Universiteti*
*xanbabayev53@mail.ru*

Azərbaycan Respublikası Prezidentinin 07 iyul 2021-ci il tarixli 1386 nömrəli Fərmanı ilə işğaldan azad edilmiş ərazilərimiz də daxil olmaqla yaradılmış Şərqi Zəngəzur (ərazisi Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonları hesabına) və Qarabağ (tərkibinə Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları daxil olmaqla) iqtisadi rayonlarının torpaq ehtiyatlarının səmərəli istifadə olunması, təbii və yerli imkanlardan kompleks şəkildə yararlanmaqla regionun perspektiv inkişaf istiqamətlərinin, təsərrüfat sahələrinin funksional ixtisalaşma sahələrinin iqtisadi qiymətləndirilməsi baxımdan elmi-nəzəri qiymətləndirilməsi xüsusilə vacibdir.

Təqribən bir qərinəlik işğaldan azad edilmiş inzibati-ərazi vahidləri hüdudlarında ekosistemin struktur elementləri (meşə landşaftı, rekreasiya məkanları, sənaye əhəmiyyətli təbii-minral xammal yataqları, geotermal-hidroloji mənbələr), daşınmaz əmlakın bütün növləri (kənd təsərrüfatı uqodiyaları, məskunlaşma əraziləri, istehsal və istehlak obyektləri, mühəndis-kommunikasiya qurğuları, infrastruktur bölmələri) tamamilə talan edildiyi, texnogen və radioaktiv çirklənməyə məruz qaldığı üçün, potensial, iqtisadi səmərəliliyinin azalması nəzərə alınmaqla bu məsələlər yeni yanaşma tələb edir.

İşğaldan azad edilmiş ərazilərimizdə (1,6 milyon hektar torpaq sahəsində) yeni yaranmış Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının inzibati-ərazi vahidlərində yerləşdiriləcək məhsuldar qüvvələrin dayaqlı və fasiləsiz istehsal şəraiti ilə təminatında kənd turizmi təsərrüfatı mühüm rol oynaya bilər. Bu sahənin inkişaf etdirilməsi mərkəzi və yerli icra orqanları ilə yanaşı, bələdiyyə qurumlarının və kənd əhalisinin birgə səyi ilə ixtisaslaşma sahəsinə çevriləsi üçün bu bölgələrdə kifayət qədər əlverişli təbii-coğrafi imkanlar mövcuddur. Bir cəhəti də qeyd etmək olar ki, bu sahə digər istehsal (yerli istehsala və tədarükə əsaslanan kiçik həcmli kənd təsərrüfatı məhsullarının (südçülük-ətçilik, arıçılıq, bostan-tərəvəz, meyvə məhsullarının emalı-satışı) emalı və qeyri-istehsal sahələrinin (milli-etnoqrafik ənənələrin tədrisi-təbliği mərkəzləri, dini-sakral ocaqların fəaliyyəti, xalq mərasimlərinin-oyunlarının təşkili, tarixi-diyarşünaslıq muzeylərinin fəaliyyəti, xalq toxuculuq sənətinin yaranması) formalaşmasına təkan verən ekoiqtisadi mühit, eləcə də daşınmaz əmlak bazarı) formalaşdıra bilər.

Ölkə daxili inzibati-ərazi vahidlərində kənd turizmi təsərrüfatının bazar iqtisadiyyatı prinsiplərinə uyğun iqtisadi sərmayəsi nəzərə alınan əsas amil olduğu kimi, xarici ölkələrlə sərhəddə yerləşən bölgələrimizdə bu sahənin





inkişafı həm də strateji əhəmiyyəti, dövlətçiliymizin gücləndirilməsi və tarixi-coğrafi irsimizin mühafizəsi (ekosistem daxilində) baxımından nəzərə alınmalıdır.

Şərqi Zəngəzur iqtisadi rayonu daxilində Zəngilan rayonunun timsalında kənd turizmi təsərrüfatının elmi-nəzəri təhlilini aparmaqla fikrimizi əsaslandıra bilərik:

1.Təbii-coğrafi şəraiti nəzərə alınmaqla kənd turizmi təsərrüfatının yaranması, formalaşması və inkişafı üçün rayonun qərb hissəsində, Ağbiz (854 m)-Bartaz (1854 m) dağları istiqamətində, Süsəndağ-Əsgülüm silsilələri boyunca, Oxçuçay-Bəsitçay-Sobuçay hövzələri əhatəsində yerləşən Ağbiz, Yuxarı, Aşağı və Orta Yeməzli, Böyük və Dərə Gilətağ, Sarılı və Quyudərə Xəştab, Seyidlər, Qaragöl, Sobu, Şamlı, Rəzdərə, Bartaz, Vejnəli kəndləri ilk növbədə əlverişli təbii-lanşaft (pekreasiya) imkanlarına malikdir və kənd turizmi sahəvi kadastr bazasına daxil edilə bilər;

2. Bu kəndlərdə mövcud olan rekreasiya əhəmiyyətli Süsən və Əsgülüm meşə landşaftı, dağ çayları-gur şəlalər örtüyü, estetik-təbii mənzərələr panoraması, ekoloji təmiz kənd məhsullarının istehsalı, etno-milli ənənələrinin (xalq oyunları və mərasimlər, milli mətbəxin çeşidləri) kənd turizmi üçün geniş imkanlar yaradır;

3. Tarixi-sakral məkanların daxil olduğu məhəlli marşrut istiqamətləri milli-etnoqrafik irsin-ənənələrin təbliği üçün, "milli mətbəx dərsləri"nin keçirilməsi (ustad dərslər səviyyəsində) isə çeşidli, milli klunariya bacarıqlarının yaşadılması baxımından əhəmiyyətlidir;

4. Zəngilan rayonu ərazisində "Ağıllı kənd" layihəsinin şərtləri ilə adları çəkilən yaşayış məntələrinin əlverişli təbii və sosial-iqtisadi imkanlarının uzlaşdırılması kompleks məskunlaşma-istehsal sisteminin yaranmasına səbəb ola bilər;

Kənd turizmi təsərrüfatının yaradılmasına və inkişafına, beynəlxalq turizm ünvanına çevrilməsinə dair regional inkişaf proqramının hazırlanmasında mərkəzi icra orqanı kimi Dövlət Turizm Agentliyinin, eləcə də yerli icra və bələdiyyə qurumlarının qarşısında mühüm vəzifələr durur. Şərqi Zəngəzur iqtisadi rayonunun digər torpaq-kadastr rayonlarında və inzibati-ərazi vahidlərində kənd türizminin inkişaf istiqamətləri bir sıra ümumi və səciyyəvi təbii-coğrafi və sosial-iqtisadi imkanlara malikdir.